Gəzdim gözəl İstanbulu, başdan-başa gəzdim,
Üç ay sarılıb boynuna, hər səmtini sezdim.

Dünya geniş, əlbəttə, gözəl bəldəsi çoxdur,
Bundan gözəli yerdə də yox, göydə də yoxdur.

Duydum canım İstanbulu, həp varlığı Türkdür,
Bir ölkə sığar qoynuna, olduqca böyükdür!

İstanbula daldım, Bakıma bənzəri çoxdur,
Orda Bakımın sözləri çox, izləri çoxdur.

Sandım Bakım İstanbula köçmüş, nə səadət!
Üzlərdə o şəfqət, o nəzakət, o məhəbbət!

Baxdım adımız bir, soyumuz bir, dilimiz bir,
Gördüm odumuz bir, suyumuz bir, elimiz bir.

İstanbulun övladları yurddaşlarımızdır,
Bir türkü deyən sevgili türkdaşlarımızdır!

Var ol dedim İstanbula həsrət canımızdan,
Candan ona bağlı can Azərbaycanımızdan!

İstanbul, 1984

DƏNİZ ŞAİRİ

Kimdir o igid yolçu ki şimşək kimi çaxmış,
Al yelkəninin üstünə Ay-yıldızı taxmış?!
Türk duyğulu türkdaşlarımızdan biridir o,
Türkün dəniz ilhamlı dəniz şairidir o!

İstanbul, 1989

SEVMƏKMİ GÖZƏL, YOXSA SEVİLMƏKMİ GÖZƏLDİR?!

QURBAN VERƏRDİM

Mənə bircə kəlmə can söyləsəydin,
O bircə kəlmənə min can verərdim,
Ömrümü, günümü dərd eyləsəydin,
Ömrümü, günümü dərman verərdim.

Bezdirdim qəlbini sədaqətimlə,
Qaldım həsrətimlə, müsibətimlə,
Könlümü alsaydın, bu zülmətimlə
Sənə bir işıqlı cahan verərdim.

O günlər necə də mənə haydılar,
Könlümə, gözümə şəfəq yaydılar,
Gedən günlərimi qaytaraydılar,
Gələn günlərimi qurban verərdim.

1975

AYRILDIQ

Öylə ayrıldıq ki, sənlə, ey gül,
Bir də ayrılıqdan ayrı düşmərik!
Ah, bu son hicranın vüsalı müşkül,
Dağ dağa rast gələr, biz görüşmərik!..

1975

KÖNLÜMÜN TÜRKÜSÜ

Könlümün türküsü sənsiz olmaz,
Gülşənimsən, çəmənimsən, gözəlim!

Gözlərin nur dolu nərgizlərdir,
Əlləri yasəmənimsən, gözəlim!

Yasaq olmuş sənə dərdsiz nəşə,
Nəşəsiz dərdə qənimsən, gözəlim!

Ruhum ömrüm boyu səndən bezməz,
Sən ki mərmərbədənimsən gözəlim!

Qəlbimiz bir vurur aləmdə bizim,
Mən sənin, sənsə mənimsən, gözəlim!

1987

UZAQLARDA

Uçar uçar uca qartal dumanlı dağlarda,
Görən o qartalı olmaz çiçəkli bağlarda,
Şəfəqli pəncərələrdə, yaşıl budaqlarda,
Qanad çalar dəli könlüm kimi uzaqlarda.

1985

NƏ BİR TƏSƏLLİ

Könlümdə, gözümdə bir iztirab var,
Nə məndə dözüm var, nə canda tab var,
Fikirdən qamətim suala dönmüş,
Nə bir təsəlli var, nə bir cavab var.

1986

CEYRAN

Ey gözəl ceyran gözəl şairlərin seyranısan,
Sən ki ceyran gözlərinlə qızların ceyranısan,
Kim görüb candan könül verməz sənə, mümkün deyil,
El sənin heyranın olmuş, sən kimin heyranısan?!

1973

AÇILDI

Bahar gəldi, aləmə nur saçıldı,
Dağın-daşın rəngi-ruhu açıldı

1966

UZAQ DÜŞDÜ

Məndən, ah, sevgilim uzaq düşdü,
Bağrıma qar, qırov, sazaq düşdü.

Köksümə dağ çəkildi, dağ düşdü,
Ayrılıqdan könül qaçaq düşdü.

Başıma sırma-sırma ağ düşdü,
Yaşamaq ömrümə yasaq düşdü.

1987

GÖZƏL XATİRƏLƏR

Bir günəşdir o gözəl xatirələr dunyama,
Ah, nələr söyləyərəm, hisslərimi dindirələr.
O gözəl xatirələr indi girir röyama,
Dadlı röyalara bənzər o gözəl xatirələr.

1980

BAHARLA GƏL

Qoyub xəzəldə aləmi,
Baharda getdin, eyləmi?
Sovuşsun ömrümün qəmi
Doğan güneşlə parla, gəl.
Bahar gəlir, baharla gəl!

Bahar gəlir, canım-gözüm,
Rəvamı gülməsin üzüm?
Dolub gecəylə gündüzüm,
Sən onları ayarla, gəl,
Bahar gəlir, baharla gəl.

Baharla gəl, bahar kimi,
Bahar səninlə yar kimi,
Ətir qübarı qar kimi,
Alovlu lalәzarla gəl,
Bahar gəlir, baharla gəl.

Könül vüsalı özləyir,
Gözümsə yollar izləyir,
Gəl, ey mələk ki, gözləyir
Rəfiqin intizarla, gəl,
Bahar gəlir, baharla gəl!

1970

GÖZƏLSƏN

Canım, söz yox, gözəlsən,
Gözəlsən, çox gözəlsən!

Unutma, ey gözəl qız,
Gözəl olmaz Zəkasız.

Gözəl bir üz gözəldir,
Əvət, sözsüz, gözəldir.

Xoşum gəlməz əzəldən
Zəkasız bir gözəldən.

Gözəlsən, ox, gözəlsən,
Gözəlsən, çox gözəlsən!

Zəka olsa gözəldə,
Yaxın durmaz xəzəl də.

Bu çarpan qəlbi dinlə,
Zəka olsa səninlə.

Xəzana uğramazsan,
Ətirli, güllü yazsan.

Yaz olmurmu xəzəlsiz?
Zəka olmaz gözəlsiz...

1986

SEVGİLİMİN

Diləyimdir, diləyimdən keçir o,
Ürəyimdir, ürəyimdən keçir o,
Orada izləri var sevgilimin.

O baxışlar, o yanaqlar nə gözəl,
Qönçədən incə dodaqlar nə gözəl,
Nə gözəl gözləri var sevgilimin.

Ah, o saçlar nə gözəl dalğalanar,
Gözəl üzdə nə gözəl halqalanar,
Aylı gündüzləri var sevgilimin.

Hissləri, duyğuları, qayğıları
Türkülərdir ucalar, aydan arı,
Gül kimi sözləri var sevgilimin.

1975

DEMƏ, EY GÜL

Deyirsən: "Səndən öncə
Mən ölüm..." Demə, ey gül!

Ölərəm, sən ölüncə,
"Mən ölüm" demə, ey gül!

Həyatın gömülüncə
Mən ölüm!.. Demə, ey gül!

Bu arzum səntək incə,
Mən ölüm, demə, ey gül!

1983

BU SABAH

Bu gecə irmaqlar çağlar qanımda,
Canımı görürəm sanki yanımda,
Sənin ürəyindir mənim canımda,
Mənə səndən özgə pənah olmasın.

Bu gecə kainat gülür gözümdə,
İnana bilmirəm, inan, özüm də,
Başın çiynimdədir, əlin üzümdə,
Əlini öpməyim günah olmasın.

Aypara göylərdə duran bir qayıq,
Duyğular oyanıq, ulduzlar ayıq,
Bu sabah sənlə ayrılmalıyıq,
Bu gecə istərəm sabah olmasın...

1985

GETMƏ, GÖZƏLİM, GETMƏ

Gəldin, nə gözəl oldu,
Gül açdı, tikan soldu,
Güldükcə, gözüm doldu,

Getmə, məni tərk etmə,
Getmə, gözəlim, getmə!

Sənsiz yığılar bağlar,
Sənsiz dağılar dağlar,
Sənsiz ağılar çağlar...

Getmə, məni tərk etmə,
Sənsizləmişəm, getmə!

Getsən, görərəm yay, qış
Gülşəndə ular qurt-quş,
Bülbüllər olar bayquş.

Getmə, məni tərk etmə,
Getmə, gözəlim, getmə!

Getsən, darılar ağlım,
Bağrım yarılar, bağrım,
Köksümdə qopar ağrım.

Sənsizləmişəm, getmə,
Getmə, məni tərk etmə!

Sanma gəzərəm sənsiz,
Candan bezərəm sənsiz,
Mənmi dözərəm sənsiz?

Getmə, məni tərk etmə,
Getmə, gözəlim, getmə!

1985

BAHAR GƏLİBDİR

Yenə də bahar gəlibdir,
Necə bəxtiyar gəlibdir!

Yamaca çəmən, dağa gül,
Düzə lalәzər gəlibdir.

Bəzənib gəlin təkin çöl,
Neçə nəğməkar gəlibdir.

Dumanım gedib başımdan,
O gözəl nigar gəlibdir.

O gözəl nigar ki gəlmiş,
Gözəl intizar gəlibdir.

Bu baharda bir bahar var,
O baharlı yar gəlibdir.

O baharlı yar ki gəlmiş,
İkiqat bahar gəlibdir!..

1985

OLARAM

Sən açan bir qönçə olsan,
Mən sənin bağçan olaram,
Mənim diləyimcə olsan,
Sənlə bir can olaram.

Dadlı bir nəğməsən mənə,
Bunu çox görmə sən mənə,
İşgəncə verməsən mənə,
Mutlu bir ozan olaram.

Əhdü-peyman bir yol olar,
Dərdə dərman bir yol olar,
İldə qurban bir yol olar,
Mən hər gün qurban olaram.

1985

SƏNİN KİMİ

Gülüm, sənin kimi sevimli gül yox,
Sevincli bir qönçə yox sənin kimi.
Sənin könlün kimi incə könül yox,
Çox da ki dadlı qız çox sənin kimi.

Gözəllik aləmi gülər üzündə,
Gül üzün ömrümcə seyrim olaydı.
Nolaydı ömrümcə bu yer üzündə
Mənim sənin kimi şerim olaydı.

Başqa bir gözəldə mənim gözüm yox,
Olsan da ən əziz düşmənim kimi.
Mənim sənin kimi gülə sözüm yox,
Sən sevə biləydin, kaş, mənim kimi.

1986

* * *

Can var ikən qismət oldu candan ayrılmaq mənə,
Candan ayrılmaq demək canandan ayrılmaq mənə...

1976

ÇAĞLAMA

Gülüm soldu, baharımı aldı qış,
Çağlama, ey dərdli könül, çağlama!
Ağlamaqdan kimsə mutlu olmamış,
Ağlama, ey dərdli könül, ağlama!

Tarımlaşıb rübabının tək simi,
Görə bilməm göz yaşımdan əksimi,
Dağlama gəl öz əlinlə köksümü,
Dağlama, ey dərdli könül, dağlama!

Bu dünyada nə çəkibsə, mərd çəkib,
Aşıq olan həsrət çəkib, dərd çəkib.
Burax gedim, yollarıma səd çəkib,
Bağlama, ey dərdli könül, bağlama!

1985

İNANDIM

Getdin, günlərimə gün doğmur kimi,
Axır gözyaşlarım bir yağmur kimi.

Baharım da getdi, gülüm də getdi,
Gözümdən həyat da, ölüm də getdi.

Qalmadı ömrüm də, heçnə qalmadı,
Kimsə mənim kimi dərdə dalmadı.

Özüm də bilmədim nə xəbər oldu,
Gecəylə gündüzüm bərabər oldu.

Baharda gəlmişdin, baharda getdin,
Getdin, gül də getdi, bahar da, getdin.

Getdi dadlı günlər, dadlı seyirlər,
Baharda bərabər olur, deyirlər.

Gecəylə gündüz,
Düz imiş bu, düz...

1977

GƏL, SEVDİCİYİM

Səndən sən ayırdın məni, can qalmadı canda,
Sənsiz yaşamaq ölməyə bənzər bu cahanda.

Qəlbimdə olun ağrılar artar bu bəladan,
Qurbanın olum, gəl, məni qurtar bu bəladan!

Gəl, qönçələr açsın yenə, uçsun xəzəlim, gəl,
Gəl, sevdiciyim, gəl, mələyim, gəl, gözəlim, gəl!

Gəlsən, gələcək yaz, güləcək gül, gedəcək qəm,
Cənnət gələcəkdir, gedəcəkdir bu cəhənnəm!

İlham gələcəkdir mənə gəlsən yenə, gəlsən,
Sənsizləmişəm, ah, bunu bilsən, yenə gəlsən!

Gəl, gülməsin aləm mənə, gəl, yalvarıram, gəl,
Gəl, gəl ki ölüm səmtinə hər gün varıram gəl!

Çarpar deyə gülşənlərə bir qəhqəhə səndən,
Gülşənlərə dalmaqda könül, nuru gedəndən.

Gülşənləri nurunla bərabər gəzəlim, gəl,
Gəl, sevdiciyim, gəl, mələyim, gəl, gözəlim, gəl!

1977

* * *

Sənin dadlı öpüşün gözəllikdir bir udum,
İçincə yerimdəcə qovaq kimi qurudum.
Bir udum daha ver ki, unudulsun bu yanğı,
Bir udum gözəlliyi, söylə, nə cür unudum?!

1984

* * *

Bir zaman öz əliylə yaxdı, qovurdu məni,
Bir gülşənə döndərib, göyə sovurdu məni,
Düşdüm ayaqlarına, mənim üstümə düşdü,
Vurdu ildırım kimi vurdu, o, vurdu məni!

1984

AMANSIZCASINA

Sən mənim mənliyimi asdın amansızcasına,
Yarılan bağrıma daş basdın amansızcasına.

Qəlbini qısma deyib, qısdın amansızcasına,
Yarılan bağrıma daş basdın amansızcasına.

Bir zamanlar necə də bəxtimə yardın, gözəlim,
Nə dilərdimsə, duyardımsa, duyardın, gözəlim.

Köksümü parçalayıb, bağrımı yardın, gözəlim,
Yarılan bağrıma daş basdın amansızcasına!

1984

YAD ET

Bilmərn, haraya üz tutum əfqanın əlindən,
Ayrıldı əlim sən kimi cananın əlindən,
Dad eyləyərəm daima hicranın əlindən.

Hicranın əlindən dəli könlüm kimi dad et,
Yad et o görüşlərlə keçən günləri, yad et!

Sən ki, alışan ruhum idin, ruhumu şad et,
Şad et məni, bir an yenə ruhumca murad et.
Bir an əzabında, nə zülmündə inad et!

Yad bilmə Zəkanı, nə qiyam et, nə fəsad et,
Yad et o gülüşlərlə keçən günləri, yad et!

1984

* * *

Bəzək-düzək istəməz binadan gözəl üzlər,
Sürmə nədir nə bilsin güneşlə dolu gözlər.

Sənin təbii ətrin təbiətdə tapılmaz,
Bahar tanrıçasısan deyən hissə qapılmaz.

1980

OXŞAMA

Gəlişin ürəksiz oldu,
Görüşün sürəksiz oldu,
Sevginlə odlanan könül
Ömrünə gərəksiz oldu.

Düşdüm qaranlıq axşama,
Ox, məni daha oxşama!

Güneş batdı, ayım getdi,
Ulduzlar alayım getdi,
Nələr çəkdi yanan könül,
Vayım gəldi, hayım getdi.

Düşdüm qaranlıq axşama,
Ox, məni daha oxşama!

Uğradım əzaba yalnız,
Mən yalnızam, yapa yalnız,
Yalnızlığın üzü qara,
Hardan işıq tapa yalnız.

Düşdüm qaranlıq axşama,
Ox, məni daha oxşama!

1984

BU AXŞAM

Bu axşam mutlu axşam,
Sahildəyik baş-başa,
Dəli könlümdə ilham.

Ulduzlar bir tamaşa,
Hər birisi bir ağ şam,
Bu axşam mutlu axşam.

Üfüqlərdə aypara
Durub bir yelkən kimi,
Kaş, o bizi apara.

Sən də düşün mən kimi,
Mən sənə vurulmuşam,
Bu axşam mutlu axşam.

1984

UNUTMADIMI?

Eşitdim, çəkincə mənim adımı,
Demisən: könlünü ovutmadımı?
Gülüm, qırmadınmı qol-qanadımı,
Səni Rofiq Zəka unutmadımı?!

1984

SANARAM

Yaralı ney kimi coşar, inlərəm,
Dolu gözlərimə çən qovuşanda,
Sanaram bir incə türkü dinlərəm,
Göz-gözə mənimlə sən konuşanda.

1984

GÖRÜNCƏ

Dünyamı qaranlıq saran zamanda,
Sən doğdun ömrümdə bir günəş kimi.

Varlığım yoxluğa varan zamanda,
İçimdə oyatdın bir gün eşqimi.

Ağlayan könlümü kiritmək üçün,
Canlandır gözümdə hər gün eşqimi.

Soyuq həsrətini əritmək üçün
Sənsiz otağıma gir günəş kimi.

Qolumda qandalım pas tutar, gülüm,
Bir sabah eyləsən sürgün eşqimi.

Rəfiqin büsatı yas tutar, gülüm,
Yas tutar, görüncə ölgün eşqimi...

1984

* * *

Ayrıldıq, yolları qar, sazaq oldu,
Könlüm həsrətinlə yalquzaq oldu.
Deyirdin: yaxında görüşəcəyik,
Nə oldu? Bu yaxın nə uzaq oldu?!.

1984

SEVGİ

Sevgidir uzadan ömrü, heyif ki,
Ömürdən qısadır dünyada sevgi.

GECƏNİN O TAYINDA...

Gülüm, yaşatdın məni,
Gecənin o tayında.

Göyə ucaltdın məni
Gecənin o tayında.

Odlu bilməcələr var,
Dadlı düşüncələr var.

Gündüzlü gecələr var
Gecənin o tayında.

Gecənin o tayında
Könül arzumu gördüm.

Bəxt ulduzumu gördüm
Gecənin o tayında.

Bu dünyadan nə anlar
Eşqə tutulmayanlar?!

Yaşar əbədi anlar
Gecənin o tayında.

Boşluğa atdın məni,
Dərdə uğratdın məni.

Zülmətə qatdın məni
Gecənin o tayında.

1985

SƏNDƏNMİDİR

İlhamısan bülbüllərin,
Şerisən qızılgüllərin,
O gözlərin, o əllərin
Nərgizdən, süsəndənmidir?

Yanında könlüm quş olur,
Ayrılıq bir bayquş olur,
Rəfiqin ki, bihuş olur,
Ətirli busəndənmidir?

Gül nəfəsindir nəfəsim,
Bəsimdir mənim bu, bəsim,
Rüzgar əsər əsim-əsim,
Tellərin əsəndənmidir?

Nə gərək xəzəlləşməyin,
Çocuqtək dəcəlləşməyin,
Sənin bu gözəlləşməyin
Sən məndən küsəndənmidir?

Rəfiq bilməz biganəlik,
Biganəlik – viranəlik,
Gülüm, bunca divanəlik
Məndənmidir, səndənmidir?

1984

SEVGİ OLUB

Dəli könlüm zaman-zaman vurulub,
Ucalardan axıb-axıb durulub,
Məni candan yaxan nədir? Sevgi!
Məni şair edən də sevgi olub!

1985

QOCALMAZ

Kim deyir bu həyatda ucalmaz sevən insan?!
Sevən könül qocalmaz, qocalmaz sevən insan!

1985

MƏNİMSƏN

Bu dünyada yazımsan, gülşənimsən,
Mənimsən, ey mənim yarım, mənimsən!

Rəfiqə olma ömründə qənim sən,
Mənimsən, ey mənim yarım, mənimsən!

Bu dəryada gəmim sən, yelkənim sən,
Çənimdə şölə, şöləmdə çənimsən.

Gözümdən düşmə, olma düşmənim sən,
Mənimsən, ey mənim yarım, mənimsən!

1985

OLDUM

Ayrılığın üzündən bir sarı yarpaq oldum,
Gülüm, sənin sözündən rəngi ağappaq oldum.
Rüzgar önünə qatdı, qar vurdu, şaxta yıxdı,
Mən yaxıla-yaxıla sonunda torpaq oldum.

1985

QALMADI

Qal dedim, ey sevgilim, getmə, aman, qalmadı,
Məndə o gündən bəri tabu-tavan qalmadı.

Daldı gözüm yollara, qaldı könül kimsəsiz,
Aldı o canım mənim canımı, can qalmadı.

Əlləri qoynunda mən qaldım, olub dorbədər,
Dərdimi ərz etməyə dağda duman qalmadı.

Yıxdı o zalım məni, bir daha qaldırmadı,
Məndə güman qalmadı, onda iman qalmadı.

Qalmadı əsla ümid, qaldı xalından əsər,
Qəlbimə xal saldı, xal, başqa nişan qalmadı.

Əldə kaman hıçqıran, oxlarını daş qıran
Hansı yanıq aşiqin qəddi kaman qalmadı?!

Yox, dedilər, dərdinə çarə yox aşiqlərin,
Çox sinədəftər tapıb sordum, ozan qalmadı.

Sevgimi heç eylədi, heçnə kimi heçnədən,
Heç kəsi yoxdur deyə, heç nigaran qalmadı.

Qalmadı sevdan sənin, qaldımı sevgin, Zəka,
Bir daha ah etməyə məndə güman qalmadı.

1984

* * *

Gözlərim olmaq üçün
Güzgün, ah eyləmişəm.

Görmüşəm gözlərini
Süzgün, ah eyləmişəm.

Gülüm, əfv eylə məni,
Yüz günah eyləmişəm.

Yüz günahımla qalıb,
Yüz gün ah eyləmişəm.

1984

HİCRAN

Tutuldum bir qərib eşqə,
Nə gördüm cövrdən başqa,
Gedəydi həsrətim keşkə,
Nə zalımmış, aman, hicran!

Bu qorxu odlu bir qorxu,
Ölümdən fərqi yox uyqu,
Keçilməz bir dənizdir bu,
Açılmaz bir duman hicran.

Mürüvvət yox, fəlakət çox,
Ədalət yox, ədavət çox,
Şikayət çox, müsibət çox,
Hər illətdən yaman hicran.

1965

ÖLÜNCƏ

Sənsiz yaşaya bilməm, dinlə könlümü, dinlə,
Gündüzlərim sənlə, gecələrim sənlə!
Sənlə bir kəfənə bürünəydim ölüncə,
Olmazdı iztirabım torpağa gömüləncə.

1965

DÜŞMƏK

Ayrı düşmək kimə düşmüşdü ki, düşsün mənə də?
Ayrılıq düşdü mənim bəxtimə, erkən düşdü.

Düşdü zülmət, düşəli üstümə şimşək çaxdı,
Yıldırım düşdü, aman vermədi, birdən düşdü.

Qara sevdaya düşəndən bəri düşdüm ruhdan,
Mən düşən dərdə nə dost düşdü, nə düşmən düşdü.

Sənə dərman, mənə dərd düşdü, düşündüm, gözəlim,
Tanrının mərhəməti, qeyzi bizə tən düşdü.

Düşməsin kimsə mənimtək ki, yaman düşdüm mən,
Mənə ayrıldı tikanlıq, sənə gülşən düşdü.

Oda düşsəm də, adın əsla dilimdən düşməz,
Necə dildən-dilə düşdüm, başıma dən düşdü.

Nə günə düşdü Zəka səndən uzaq düşməklə,
Tilsimə düşdü ki, səndən əbədi gen düşdü.

1990

BU BAHAR

Bir yaşıl ulduza bənzər bu bahar,
Qəmlidir, yalqıza bənzər bu bahar.

Alışan qönçələri nisgilidir,
Gözləri yolda olan sevgilidir.

Bir gözəldir ki, gözəllər heyran,
Bir gözəllik ki, umulmaz seyran.

Gözlərindən əzəli nur süzülər,
Titrəyən pənbə şəfəqlərlə gülər.

Gülləri, qönçələriylə bəzənib,
Xilqətin incilərilə bəzənib.

Qəmlidir, yalqıza bənzər bu bahar,
Bir gəlinlik qıza bənzər bu bahar.

1986

BİR GÖZƏL ÜZ

Bu gözəllik gedəcək, incə məsəldir, gözəlim,
Hər gözəl ən gözəl, ən dadlı qəzəldir, gözəlim!
Gözəl, əlbəttə ki, çox şeydan əzəldir, gözəlim!
Gül üzün bir üzə gülmürsə, xəzəldir, gözəlim!
Bir gözəl qız üzə güldükdə gözəldir, gözəlim!

1986

YADİGAR KİMİ

Gəldin xəzanlı ömrümə bir gün bahar kimi
Canlandı laləzar kimi ruhumda şəfqətin.

Gördüm ki, ülfətində görünmür sədaqətin,
Yaşlandı gözlərimdə sevincin qübar kimi.

Getdin, xəyala döndü xəyalımda surətin,
Ulduzlar odlanıb başıma yağdı qar kimi.

Mən oldum ixtiyar kimi, sən bəxtiyar kimi,
Çağlar, atar damar kimi qəlbimdə həsrətin.

Bağrım məzar kimi, nəfəsim ahu-zar kimi,
Şimşəklənib gömüldü qaranlıqda vüslətin.

Sənsiz davam edən o davamsız məhəbbətin
Çıxmaz, canım çıxınca canımdan azar kimi.

1984

NƏ DEYİRSƏN?

Sən sevgiyə gerçəkdə bir əfsanə deyirsən,
Sənsiz yaşamaq ölməyə bənzər, nə deyirsən?!
Candan keçən aşiqlərə divanə deyirsən,
Sənsiz yaşamaq ölməyə bənzər, nə deyirsən?!

Gerçək də, gülüm, sevgidir, əfsanə də sevgi,
Güllər açılar, parlasa viranədə sevgi,
Sənsiz nə könül var, nə ömür var, nə də sevgi,
Sənsiz yaşamaq ölməyə bənzər, nə deyirsən?!

YAĞMUR GÖZLÜM

Sənə gülmək yaraşır gülşəndə,
Güllər eşqinlə gülür, gül sən də!
Gül mələklər kimi, ey gül üzlüm,
Ağlama, ağlama, yağmur gözlüm!

Ağlama, ağlama, udlar ağlar,
Dolu könlümdə umudlar ağlar,
Sənə daldıqca buludlar ağlar,
Ağlama, ağlama, yağmur gözlüm..

1978

MƏLƏK YAVRUSU

Gözlərin ilahi ulduzlar kimi,
Saçın qızıl günəş, üzün bəyaz Ay,
Gəlişin sevimli ilk bahar kimi,
Haray gözəlliyin əlindən, haray!

İstəsən gözümdən bulaq çəkərsən,
Qasırğa səndədir, ümman səndədir,
İstəsən köksümə min dağ çəkərsən,
Dağ səndə, sel səndə, duman səndədir.

Qarşıma səd kimi çıxar hər divar,
Çıxsa da ömrümün fərmanı birdir.
Zavallı könlümün minbir dərdi var,
Minbir dərdiminsə dərmanı birdir...

Canlı qönçələrmi gül dodaqların?
Qızılgül ətri var gül nəfəsində.
Gülən dan yeridir al yanaqların,
Ruhumun səsi var sənin səsində.

Bilmirəm, olubmu mələk yavrusu?
Mələk yavrusunu dansan da, sənsən!

Sənsən yer üzündə sevgi tanrısı,
Tanrı da, mələk də, insan da sənsən,

Əbədiliyinlə, əzəlliyinlə
Zaman da səndədir, məkan da səndə!
Sən bir kainatsan gözəlliyinlə,
Rəfiqin də səndə, Zəkan da səndə.

1984

NİYƏ GƏLMƏDİ

Getdi yar, niyə gəlmədi,
Ölmədim deyə, gəlmədi.

Yaralandı bağrım mənim,
Paralandı bağrım mənim.

Tutuldu nəşəli könlüm,
Məcnun oldu dəli könlüm...

Döndü Leyliyə, gəlmədi,
Bilmədim, niyə gəlmədi.

Getdi yar, məndən incidi,
Neylədim, nədən incidi?!

Birdən-birə üzü döndü,
Gözü döndü, sözü döndü.

Özü dönmədi, dönmədi.
İçimdə odu sönmədi.

Bu ayrılıq əcəldi ki,
Yarıma öylə gəldi ki...

Bilmədim niyə gəlmədi,
Ölmədim deyə, gəlmədi...

1985

DÜŞÜNMƏ, SEVGİLİM

Düşünmə, sevgilim, bugün
Gülümsəyən çiçəkləri,
Bugün-sabah solar demə
Baharının bəzəkləri.

Təbiətin çiçəkləri
Gələn bahar açar yenə,
Bahar gələn zaman Günəş
Doğub şəfəq saçar yenə.

Düşünmə, sevgilim, bugün
Bir az solan çəmənləri,
Ləçəklərində çən duran
Zavallı yasəmənləri.

Payızda qovrulan çəmən
Baharda dirçələr yenə,
Zavallı, çənli yasəmən
Açınca nur çilər yenə.

Düşünmə, sevgilim, aman,
Düşün bizim məhəbbəti,
Düşün mənim zaman-zaman
Düşündüyüm müsibəti...

1986

UMUDSUZ MƏHƏBBƏT

Umudsuz məhəbbət bağrımın dağı,
Məni için-için yandırır, gülüm.
Umudsuz məhəbbət odsuz ocağı,
İşıqsız zülməti andırır, gülüm.

1986

GÖZLƏMƏK

Gözlərim yollarında, gözləyirəm,
Gözləməkdən gözəl nə var, gözəlim?!

Səni axşam-səhər əzizləyirəm,
Qəlbimi həsrətin yaxar, gözəlim!

Qara qışdır bu ayrılıq, vallah!
Gözləməkdən gözəl nə var, gözəlim?!

Gözləməkdən gözəl nə var, eyvah,
Qışın ardında var bahar, gözəlim...

1986

KÜSDÜN

Neçin getdin, neçin küsdün Rəfiqdən,
Alovlar adladı üstümdən, ey gül!

Könül ağlar ki dağlar bircə-bircə
Dumanlanmış mənim tüstümdən, ey gül!

Neçin küsdün Zəkadan ki sonunda
Həyatdan, sevgidən küsdüm mən, ey gül!

1986

ŞAİR KİMİ

Divanə eylədin məni,
Sevgin içimdə sirr kimi,
Əlinlə hörüklərini
Sal boynuma zəncir kimi.

Ha inildəyim, ha yanım,
Kimsə olmasın hayanım,
Qolları bağlı dayanım
Qarşında bir əsir kimi.

Dişlərin gövhər kimidir,
Qaşların xəncər kimidir,
Gözlərin səhər kimidir,
Saçların bir fəcir kimi.

Göz qoyma heyranlarına,
Can yandırma canlarına,
Oduna yananlarına
Yanma yetim-yesir kimi.

Başıma dünya darmıdır,
Saçıma yağan qarmıdır?
Gülüm, zavallı varmıdır
Aşiq olan şair kimi?!

1983

YARALANDIM

Ay üzlüm, yenə də sənin üzündən
İçimdə dərdlərim sıralandı, oy!
Kəskin qılınc kimi kəsən sözündən
Yaralı ciyərim paralandı, oy!

Dondu qönçələrim sazaq düşəndən,
Mən sənin gözündə yasaq düşəndən.
Sən mənim gözümdən uzaq düşəndən
Ürəyim canımdan aralandı, oy!

Tərlan oylağımı sar alan kimi,
Ömür gülşənimi qar alan kimi,
Dünya gözlərimdə qaralan kimi
Bəxtimin ulduzu qaralandı, oy!

Sənsən bu dünyada sözümün başı,
Aramam bir özgə könül sirdaşı,
Sənin həsrətinlə gözümün yaşı
Bağrımın başında qoralandı, oy!

Duydum ayrılığın zülümdür, zülüm,
Bildim nə deməkdir ölmədən ölüm,
O gül əllərinlə Rəfiqin, gülüm,
Sağalmaz yarayla yaralandı, oy!..

1988

GƏZİRƏM ONU

Nur girməz məzara, deyirlər, ancaq
Nur endi məzara bir axşam çağı,
Gözlərim önündə söndü bir ocaq
Uğradım azara bir axşam çağı.

Günəş batıb getdi, itdi bir anda,
Gözümdə yer üzü zülmətə döndü,
Bir yolluq batırmı günəş batanda?
Bəxtimin ulduzu söndü, nə söndü.

Köyrək hisslərimlə bir ağı hördüm,
Dedim ki, bu imiş sevginin sonu.
Qəbrə girdiyini gözümlə gördüm,
Yenə bu dünyada gəzirəm onu.

O nurlu mələkdən əsər nə gəzir?
Nə gəzir? Dünyada mən nə gəzirəm?!
Xəyalım gerçəkdə əfsanə gəzir.
Dünyada mən onu yenə gəzirəm...

1984

MƏNİM ÜÇÜN

Getdi o aypara mənim,
Bulunarmı çaram mənim?
Dərdim olmur aram mənim,
Sim eyləyib yaram mənim,
Ürəyimdə sim ağlayar.

Nə ömür, nə gün bilərəm,
Hər gün fəğana gələrəm,
Gözyaşlarımı silərəm,
Kim nə bilər nə dilərəm,
Mən ölmək üçün ölərəm,
Hər zaman içim ağlayar.

Gözlərimdə çən ağlaram,
Ürəyimdə sən ağlaram,
Sormazsan, nədən ağlaram,

Saçlarımda dən ağlaram,
Sənin üçün mən ağlaram,
Mənim üçün kim ağlayar?!

1975

QISQANCLIQ

Faruq Nafiz Çamlıbelə

Kim sənlə üz-üzə, göz-gözə olmaq dilər,
Qoy, üzü qara olsun, gözünə qara gəlsin.

Kim ömründə bircə gün könlünü almaq dilər,
Gecə-gündüz ömürdən, gündən, qoy, zara gəlsin.

Canından olsun səni candan əzizləyənlər,
Uğrunda can verənlər ərənlər sayılmasın.

Yol azsın səni gündüz yolunda gözləyənlər.
Səni gecə yuxuda görənlər ayılmasın!..

1975

OLAYDI

Varmadım yarıma, aləm məni bədbəxt saydı,
Bəxtiyardım, o, mənim bəxtimə yar olsaydı.

1989

TANRI

Tanrı məndən üz döndərib,
Baharıma güz göndərib,
Bu gecə röyada gördüm
Gecəmə gündüz göndərib.

1989

SƏNSİZLİK

Sənintək ağlayanların,
Bəlaya uğrayanların,
Cəfası çağlayanların,
Könüldən ağrıyanların
Gözündə yar olar, Rəfiq.

Baxışların sazaqlaşıb,
Umudların yasaqlaşıb,
Yaxınların uzaqlaşıb,
Diləklərin pasaqlaşıb,
Sonunda xar olar, Rəfiq!

Solar çiçəkli bağların,
Susar axan bulaqların,
Nədir saçında ağların,
Neçin dumanlı dağların
Başında qar olar, Rəfiq?!

Enişdə qar, duman, yağış,
Yoxuşda yoxmu bir çıxış?
Yaxır qırovlu bir çaxış,
Vüsala uğrasan bu qış
Dönüb bahar olar, Rəfiq!

1976

YETƏR

Yarımdan ayrı düşmüşəm,
Bu ölümdən betər mənə,
Bunca ki sayrı düşmüşəm,
Dəyməli bir xətər mənə

Nə ah qalır, nə də kədər,
Böylə gəlmiş, böylə gedər.
Bayquşlar sabaha qədər
Nə ağılar ötər mənə.

Ruhumu çağlatmasınlar,
Köksümü dağlatmasınlar,
Dərdimə dərd qatmasınlar,
Mənim dərdim yetər mənə.

1980

GÜLÜM

Bitdi o görüşlər, getdi o çağlar,
Yarımın həsrəti ruhumu dağlar,
Dağlar dumanlanar, dərələr ağlar,
Sel olub dağlardan tökülsəm, gülüm!

Bağrımın başına zülmət çöküldü,
Baharlı bağçamda güllər töküldü,
Ömrümün kitabı dördqat büküldü,
Yeridir ikiqat bükülsəm, gülüm.

Dərdimi bir kimsə bilməz, ağlaram,
Hayıma hayanım gəlməz, ağlaram,
Əhdimə gülmə ki, gülməz, ağlaram,
Bəxtimə gülərəm mən gülsəm, gülüm...

1980

SƏNLİ BAHAR

Gəldin bahar gələn günü gəldin bahar kimi,
Hüsnün açıldı ömrümə bir lalәzar kimi.

Sevdim sevimli tellərinin nurlu çətrini,
Duydum zərif gözəlliyini, incə ətrini.

Mən mənliyimlə eşqini candan mənimsədim,
Dünyaya bir çocuq kimi candan gülümsədim.

Getdin bahar gedən günü, getdin bahar kimi,
Könlümdə qoydun özlərimi yadigar kimi.

Qış keçmək üzrədir yenə, artıq bahar gəlir,
Ruhum diyor ki, iştə bahar gəldi yar gəlir.

Sənsiz gülüstanımdakı güllər də gülməsin,
Sənsiz bu il bahar gələcəkdirsə, gəlməsin...

1971

* * *

Qəlbim evi bir məzarə bənzər,
Nəşəm də mənim qübarə bənzər.

Sinəmdə nə çoxdu qanlı yarə,
Zənn eylə ki, lalәzarə bənzər.

Abad olan nə var cahanda
Fikrimdə xarabazara bənzər.

Dərmani, dəvani neylirəm mən,
Dərmani dəva azarə bənzər.

Bu şeri ələmzədə Zəkanın
Başdan-başa naləzarə bənzər.

1961

ŞƏRQİ

Gülşəndə gəzir sevgilim erkən,
Rənglərlə şəfəqlər öpüşərkən.
Könlüm açır ənginlərə yelkən,
Rənglərlə şəfəqlər öpüşərkən.

Həsrətlə baxar dağlara dağlar,
Bir türkü deyər içli bulaqlar,
Qarşımda gülər qönçə dodaqlar,
Rənglərlə şəfəqlər öpüşərkən.

1970

TÜRKÜ

Ömrümə, günümə şəfəq saçıldı,
Gül üzün gülüncə könlüm açıldı.
İçimdə saxlanan zülmət qaçıldı,
Gül üzün gülüncə könlüm açıldı.

Sevincli bir türkü ötdü kamanım,
O gözəl gözlərin oldu gümanım,
Ayrılıq sovuşdu, getdi dumanım,
Gül üzün gülüncə könlüm açıldı.

1987

ŞİMŞƏKLƏR, YILDIRIMLAR

YAŞAMAQ İNDİ GƏRƏK

Baxma ki, yerdə ələm, göydə bulud var, qardaş,
Bir fəğan bəslənilir, çünki sükut var, qardaş!
Qorx ölümdən ki, bugün ölməyə imkan çoxdur,
Yaşamaq indi gərəkdir ki umud var, qardaş!

Yaşamaq indi gərəkdir ki həyat qurcalanır,
Gündə düşmənlərinin dərdinə min dərd calanır,
Göz önündə yıxılır qosqocaman bir dövlət,
Çatlayıb imperatorluq, sökülür, parçalanır.

Yaşamaq indi gərəkdir ki, dəyişməkdə həyat,
Gecə-gündüz dəyişiklikləri duyduqca ürək,
Çırpınır quş kimi, ənginlərə açdıqca qanat,
Bir inancla alışır ruh, yaşamaq indi gərək!

1990

MİNNƏTİM YOXDUR MƏNİM

Hər zaman, hər yerdə yüksəklərdəyəm,
Hər sözüm bir alçağa oxdur mənim.

Çox da ki azdır yaşım, çox görmüşəm,
Ruhum acdır da, gözüm toxdur mənim.

Az deyil dünyada dostum, düşmənim,
Dostum azdır, düşmənim çoxdur mənim.

Doğmalardan almışam ilhamımı,
Özgələrdən minnətim yoxdur mənim!

1962

KİŞİNİ

Kişini eyləməz bərbad
Kişi arvad, kişi övlad...

1963

EŞİT

Eşit, oğlum, atan nə söylər, eşit,
İgidin köksünü qılınc çatmaz.
Alçağın qulluğunda durmaz igid,
Tülkünün kölgəsində qurd yatmaz.

1970

BƏXTİMİN ULDUZU

O gözəl qız uca bir ulduzdur,
Bəxtimin ulduzuna güzgü tutub,
Eyləməz eşqimin üfqündə qürub,
Onsuz aləmdə qəmim sonsuzdur.

1986

İBLİSLƏR

Dəbərirkən gəbərsin iblislər,
Özünü yaxşı göstərən pislər,
Maskalanmış min üzlü artistlər,
Aləmi zindan eyləmək istər,
Ey Zəka, onları tanıt, göstər.

1962